*Vüsalə ƏLLƏZOVA* *

# MÜSTƏQİL AZƏRBAYCANIN TƏHSİL SİSTEMİNİN İNKİŞAFINDA AKADEMİK YAQUB MAHMUDOVUN XİDMƏTLƏRİ

Azərbaycan 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bərpa etdikdən sonra inkişafın bütün önəmli sahələrində, o cümlədən təhsil sahəsində köklü dəyişikliklər, islahatlar, yeniliklər həyata keçirməli oldu. Uzun illər ərzində sovet infrasturkturunun və mədəni-sosial sisteminin tərkib hissəsi olan Azərbaycanda bu yenilikləri həyata keçirmək çox ağrılı bir proses olub, müstəqilliyinin ilk illərində təzadlı və mürəkkəb məqamlarla müşayiət olundu. Bir tərəfdən, sosialist sistemindən tamamilə əl çəkmək, bütün əvvəlki əlaqələri yenidən gözdən keçirmək, digər tərəfdən isə, tamamilə yeni bir sistemə qoşulmaq böyük dövlət siyasəti və konkret olaraq təhsil üçün isə – təhsil strategiyası tələb edirdi. Bu strategiya bir tərəfdən, ölkənin təhsil sistemindəki tənəzzülü ortadan qaldırmağa, digər tərəfdən, dünyaya inteqrasiya etməyə başlamış Azərbaycanın qloballaşma şərtlərinə uyğun təhsil sistemini qurmağa xidmət etməli idi. 1993-cü ildə Azərbaycanda hakimiyyətə Ümummilli lider Heydər Əliyevin qayıtması ölkənin siyasi, sosial-iqtisadi, mədəni inkişafının əsaslı dəyişiklik mərhələsinin başlanğıcını qoydu. Ölkədəki siyasi hərcmərcliyin aradan qaldırılması vətəndaş həmrəyliyinə yol açdı, sovet dövründən qalmış təməli ləğv etməmək şərtilə yeni iqtisadi islahatların aparılması, xüsusi neft strategiyasının qurulması nəticəsində sənayeyə və kənd təsərrüfatına böyük sərmayələrin cəlb edilməsi uğurlu sosial siyasət üçün, o cümlədən təhsil siyasəti üçün də geniş perspektivlər açdı.

Müstəqil Azərbaycanın təhsil sisteminin islahatında, köklü dəyişikliklərin aparılmasında, o cümlədən Ümummilli lider Heydər Əliyevin təhsil siyasətinin uğurla həyata keçirilməsində, əlbəttə ki, təcrübəli mütəxəssislərin, elmi və pedaqoji kadrların da rolu böyükdür. Bu kadrlar, bir tərəfdən, sovet təhsilinin optimal tərəflərini saxlamaq şərtilə, digər tərəfdən, sürətlə inteqrasiya edən dünyanın tələblərinə uyğun yenilikləri tətbiq etməklə, Azərbaycan Respublikasının təhsil sisteminin yenidən qurulmasında, Heydər Əliyevin təhsilin inkişafı strategiyasının həyata keçirilməsində yaxından iştirak etmişlər. Azərbaycanın görkəmli tarixçisi, təcrübəli pedaqoqu və ictimai xadimi akademik Yaqub Mahmudovun istər tarix təhsili, istərsə də ümumilikdə Azərbaycan təhsilinin inkişafında xidmətləri böyükdür.

* **Vüsalə Əlləzova** - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu





Elmi fəaliyyətə daha 1950-ci illərin ortalarından başlayan Yaqub Mahmudov Azərbaycanın orta əsrlər tarixinin araşdırılması və təbliğində istər yazdığı elmi məqalə və monoqrafiyaları, istərsə də dərs vəsaitləri və dərs kitabları ilə Azərbaycan elmi mühitinə yeni nəfəs gətirmişdi. Azərbaycan Ağqoyunlu dövlətinin tarixini Azərbaycançılıq mövqeyindən araşdırmaq, Azərbaycan tarixini bir Azərbaycanlı olaraq təbliğ etmək bu illərdə asan məsələ deyildi. Təsadüfi deyil ki, Yaqub Mahmudov məktəbinin araşdırmaçısı Yeganə Gözəlova bu yazıları "əsl dissident yazıları" adlandırır: "Hər hansı milli ənənəni rədd edən, milli ruhu tanımayan, siyasi inkişafda yalnız Rusiya dövlətçiliyini nümunə olaraq götürən sovet tarix elmi üçün bu əsl "dissident yazıları" idi. Yaqub Mahmudov isə hər şeyə rəğmən, Azərbaycan diplomatlarından və dövlət xadimlərindən – Uzun Həsəndən, Sara Xatundan, Azərbaycan milli dövlətçiliyinin əsasını qoymuş (sovet elmində K.Marksın təbirilə "işğalçı" olaraq tanınan) Şah İsmayıl Xətaidən, Avropa dövlətlərini bir-birinə qarşı qoymağı bacarmış Böyük Abbasdan, Hüseynəli bəy Bayatdan və onun "Böyük Elçiliyi"ndən yazırdı" [2, s.30]. Yaqub Mahmudov artıq 1960-cı illərin əvvəllərindən başlayaraq orta və ali məktəblər üçün tədris planları, proqramlar, tədris-metodiki vəsaitlər və dərsliklər yaradılması işinə böyük əmək sərf etmiş, uzun müddət Təhsil Nazirliyi Elmi-Metodiki şurasının Tarix bölməsinə rəhbərlik etmiş, bir sıra beynəlxalq konfranslarda iştirak və çıxışlar etmişdir.

Yaqub Mahmudovun elmi-pedaqoji fəaliyyətinin ən qaynar illəri isə 1985-1990-cı illərdir; məhz bu dövrdə onun "Səyyahlar, kəşflər, Azərbaycan" (1985), "Azərbaycanın Avropa ölkələri ilə əlaqələri" (1986), ali məktəblərin Tarix fakültələrinin tələbələri üçün "Orta əsrlər tarixi" (1990) kitabları nəşr edilir, ali və orta məktəblər üçün "Orta əsrlər tarixi" dərsliyi tarixçi tərəfindən rus dilindən Azərbaycan dilinə tərcümə edilir (1988) [3; 5; 6; 7].

Məlum olduğu kimi, akademik Yaqub Mahmudov 1985-1990-cı illərdə Azərbaycan (Bakı) Dövlət Universitetinin Tarix fakültəsinə rəhbərlik etmişdir. Həmin illərdə tarixçi-alim elmi yaradıcılıqla yanaşı, səriştəli elm və tədris təşkilatçısı kimi tarixçi kadrların hazırlanmasının keyfiyyətcə yüksəldilməsi, tarix elminin tədrisinin yenidən qurulması, tədris planlarının təkmilləşdirilməsi üçün genişmiqyaslı fəaliyyət göstərir və respublikanın kütləvi informasiya vasitələrində konkret təkliflərlə çıxış edir. Bu illərdə dekan Yaqub Mahmudovun təşəbbüsü və səyi ilə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində "tarixçi-şərqşünas", "beynəlxalq münasibətlər tarixi", "sosiologiya", "psixologiya", "etnopsixologiya", "etnososiologiya" kimi yeni ixtisaslar açılır. Yaqub Mahmudov bütün təzyiqlərə, maliyyə çətinliklərinə, sovet təhsil qurumlarının etirazlarına və manеələrinə baxmayaraq, Tarix fakültəsində Azərbaycanın Maddi Mədəniyyət Ta-

rixi, Tarixi Tədqiqatlarda Riyazi Üsullar, Tarixi Demoqrafiya kimi yeni laboratoriyalar açır, tələbə arxeoloji ekspedisiyaları yaradır. Bu illərdə fakültədə "Azərbaycan tarixi" fənninin saatları artırılır, Tarix fakültəsində xarici dillərin tədrisinə diqqət yetirilir, türk, ərəb, fars qrupları yaradılır, qədim türk dillərinin, folklorunun tədrisinə başlanılır [2, s.35-36].

Əslində Yaqub Mahmudovun bu illərdə Azərbaycan (Bakı) Dövlət Universitetinin Tarix fakültəsinin dekanı olaraq həyata keçirdiyi islahatlar, tətbiq etdiyi yeniliklər bir fakültə ilə məhdudlaşmırdı. Belə ki, bu illərdə onun təşəbbüsü ilə Respublika Tarix Liseyi açılmış, tarix ixtisası üzrə respublika olimpiadaları keçirilmiş, "Azərbaycan tarixinin tədqiqi, tədrisi və təbliği üzrə" Dövlət və Hökumət proqramları hazırlanmışdır. Yaqub Mahmudovun Azərbaycançılıq ruhunda elmi və pedaqoji fəaliyyətinin nəticəsi idi ki, 1990-cı illərin əvvəllərində Azərbaycan tarix elminin gələcəyini təmin etmək, nadir ixtisaslar üzrə yüksəkixtisaslı tarixçi kadrlar yetişdirmək məqsədilə fakültənin əlaçı tələbələrinin təhsillərini davam etdirmək üçün Moskva, Leninqrad universitetlərinə və SSRİ-nin başqa qabaqcıl ali məktəblərinə göndərilməsi daha məqsədyönlü xarakter alır və genişləndirilir [2, s.36].

1991-ci ilin oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi, həm siyasi, həm milli şüur baxımından Azərbaycan tarixinin parlaq səhifəsidir. Respublikanın siyasi həyatındakı bu köklü dəyişiklik, təhsil sistemində daha böyük dəyişiklikləri zəruri etmişdi. Ona görə də Yaqub Mahmudov kimi təcrübəli və milli ruhlu bir pedaqoji kadrın bu islahatlara cəlb edilməsi təsadüfi deyildi. 1991-1992-ci illərdə Yaqub Mahmudov müstəqil Azərbaycan Respublikasının yeni təhsil sisteminin yaradılması işində fəal iştirak etmişdir. Belə ki, Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi kollegiyasının qərarı ilə o, Azərbaycan Respublikasının Təhsil Konsepsiyası və Təhsil Qanununu hazırlayan ekspert-işçi qrupuna rəhbərlik etmişdir. Onun başçılığı və bilavasitə əməyi ilə qabaqcıl dünya standartlarına uyğun olan yeni təhsil sisteminin əsasları hazırlanmışdır. Konsepsiya və Qanun layihələri ölkənin bütün aparıcı informasiya vasitələrində dərc olunmuş, əhalinin, o cümlədən respublika təhsil sistemi işçilərinin geniş müzakirəsindən keçərək bəyənilmişdir Bütün təzyiqlərə baxmayaraq, Yaqub Mahmudovun təqdimatı ilə Milli Məclis, olduqca gərgin keçən müzakirələrdən sonra, 1992-ci ilin dekabrında "Azərbaycan Respublikasının Təhsil Qanunu"nu qəbul etmişdir. Bundan sonrakı mərhələdə ali məktəblərdə təhsilin bakalavr və magistratura mərhələləri fəaliyyətə başlamışdır [2, s.36].

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra təcrübəli elmi-pedaqoji kadrların Azərbaycan elminin və təhsilinin yenidən qurulması işinə cəlb edilməsi Azərbaycan dövlətçiliyi üçün də bö-





yük əhəmiyyət kəsb edirdi. Məhz bu dövrdə 1994-cü ilin əvvəlində Yaqub Mahmudov yenidən - ikinci dəfə Bakı Dövlət Universitetinin Tarix fakültəsinə dekan təyin olunur. Görkəmli tarixçinin əsas diqqəti Tarix fakültəsində kadr hazırlığının keyfiyyətcə yüksəldilməsinə, tədris planlarının təkmilləşdirilməsinə yönəldilir. Bu illərdə fakültədə yeni fənlər – "Azərbaycan toponimikası", "Tarixi demoqrafiya", "Altayşünaslığın əsasları", "Beynəlxalq münasibətlər tarixi", "Türk xalqları tarixi", "Din tarixi" fənləri tədris planına daxil edilir. Regionşünaslıq ("Qafqazşünaslıq" və "Amerikaşünaslıq") ixtisası açılır. "Dünya azərbaycanlıları (Tarixi demoqrafiya)" elmi-tədqiqat laboratoriyası yenidən fəaliyyətə başlayır; "Azərbaycanşünaslıq" mərkəzi açılır [2, s.56].

Qeyd edək ki, Yaqub Mahmudovun Azərbaycanın orta və ali məktəblərində tarix fənninin, o cümlədən Azərbaycan tarixi fənninin tədrisini təkmilləşdirmək sahəsində də mühüm xidmətləri vardır. **Müstəqil Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan tarixi dərsliklərinin hazırlanmasına XX əsrin 90-cı illərindən başlanmışdır. SSRİ-nin süqutundan sonra müstəqil Azərbaycanın təhsil sisteminin qurulması məsələsi ciddi problemlərlə üzləşmişdi.** Orta məktəblər üçün tarix sahəsində ilk proqramlar, abituriyentlər üçün "Tarix" proqramları, çoxsaylı vəsaitlər, "Tarix" kitabı, 5-ci sinif üçün "Ata yurdu", 7-ci sinif üçün "Azərbaycan tarixi" (həmmüəllif), "Orta əsrlər tarixi" (həmmüəllif), 8-ci sinif üçün "Azərbaycan tarixi" (həmmüəllif), "Orta əsrlər tarixi" (həmmüəllif), ali məktəblər üçün "Orta əsrlər tarixi" (1986), "Azərbaycan tarixi" (1996 - həmmüəllif) dərslikləri, bir çox metodik vəsait və proqramlar, dərsliklərin tərcümələri məhz Yaqub Mahmudovun qələmindən çıxmışdır. Tarixçi-alim Leyla Hüseynovanın da qeyd etdiyi kimi, orta məktəbin 5-ci sinifləri üçün hazırlanan "Ata Yurdu" dərsliyi "mənbə, illüstrasiya və şəkillərlə zəngin olub dövrün əvəzolunmaz dərs resursuna çevrildi ... Yaqub müəllim tariximizin tədrisinin təməl daşını qoydu. O, orta məktəblərin tarix müəllimlərinə bir yol cızdı və müəllimləri qeyri-müəyyənlikdən xilas etdi" [1].

Yaqub Mahmudovun özünün də dediyi kimi, "Milli şüuru formalaşdıran və milli dəyərləri özündə əks etdirən, həç şübhəsiz ki, tarix elmidir. 1990-cı ildə dövrün siyasi çətinliklərinə baxmayaraq, vahid Azərbaycan konsepsiyasına əsaslanan və üz qabığında üçrəngli bayrağımızın əks olunduğu "Azərbaycan tarixi proqramı" hazırladıq. Özü də, həmin proqramı 1990-cı ildə fövqəladə vəziyyət günlərində "Təhsil" nəşriyyatında çap etdirdik. Bu proqramda Azərbaycançılıq, türkçülük, bütöv Azərbaycan ideyalarını əsas götürərək siniflər üzrə konkret mövzular müəyyənləşdirdik. Qeyri-müəyyənlik içərisində qalan tarix müəllimlərinin əlində bu proqram bir mayak oldu. Bu dövrdən başlayaraq Azərbaycançılıq konsepsiyasını əsas götürərək orta məktəblər üçün dərsliklər hazırlanmağa

başlandı. 5-ci siniflər üçün yazılmış "Ata yurdu" dərsliyi bu istiqamətdə hazırlanmış ilk dərslik oldu. Dərslikdə şimallı cənublu bütöv Azərbaycanın tarixi xüsusi metodik üsulla qabaqcıl müəllimlər tərəfindən işləndi. İbtidai icma dövründən müasir dövrə qədər Azərbaycan tarixinin müxtəlif problemləri dövlət, şəxsiyyət, mədəniyyət konteksində təhlil olunaraq təhsil dövriyyəsinə verildi. Azərbaycançılığın təbliği "Ata yurdu" dərsliyinin əsas qayəsi olmuşdur. Ulu öndər Heydər Əliyev bu dərsliyi yüksək qiymətləndirdi" [9].

Ali məktəblərə qəbul siyasətinə çox böyük əhəmiyyət verən Yaqub Mahmudovun rəhbərliyi altında Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasında Tarix fənni üzrə elmi-metodiki seminar fəaliyyətə başladığı ilk gündən Azərbaycan tarixi və ümumdünya tarixinin öyrənilməsinin vacibliyini ön plana çəkmişdir. Qruplar üzrə tarix fənninin proqramları yazılmış və proqramda Azərbaycan tarixinə yeni yanaşma, sovet ideologiyasından təmizlənmiş mövzular öz əksini tapmışdır. Bütöv Azərbaycanın tarixi – Qarabağ, İrəvan, Borçalı, Dərbənd, Cənubi Azərbaycan tarixi, türk xalqlarının tarixi, Türk-İslam mədəniyyəti, eləcə də dünya ölkələrinin tarixi qəbul imtahanlarının proqramında və orta məktəb dərsliklərində əhatə olunmuşdur [1].

Qeyd edək ki, Yaqub Mahmudovun elmi-pedaqoji və ictimai fəaliyyəti hər zaman müstəqil dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Məhz bu yüksək qiymətin nəticəsidir ki, 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan milli ideologiyasının formalaşdığı mərkəz rolunu oynayan AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru vəzifəsinə görkəmli tarixçi Yaqub Mahmudovu təyin etmişdir. Bundan sonra "Yaqub Mahmudovun Azərbaycan tarixinin problemlərini bir alimin məktəbi çərçivəsində deyil, respublika miqyasında sistemli hala gətirərək təşkilatlandırması daha geniş şəkil almışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi, ermənilərin Azərbaycanın tarixi torpaqlarına ərazi iddialarının gücləndiyi, antiazərbaycan təbliğatının genişləndiyi şəraitdə İnstitutun rəhbərliyinə gələn Yaqub Mahmudov Azərbaycan tarixçi-alimlərinin ermənilərin əsassız iddialarını ifşa etməsi işinə səfərbər olunmasında bu İnstitutun rolunu və əhəmiyyətini yaxşı başa düşürdü" [10, s.34]. Bu səbəbdən də Yaqub Mahmudovun rəhbərlik etdiyi Tarix İnstitutunda yeni tədqiqat istiqamətlərinin müəyyən edilməsi zamanın tələbinə uyğunlaşdırılmağa başlandı. İlk növbədə elmin inkişafının təşkilati prinsipləri və yeni struktur formalarının yaradılması üzrə işlər qısa müddət sonra nəticələrini verdi: Tarix İnstitutunda yeni mərkəzlər və şöbələr yaradıldı; həm elmi, həm siyasi aktuallıq kəsb edən problemlərin araşdırılması ön plana çəkildi və bu sahədə fundamental əsərlərin nəşrinə nail olundu [2, s.40].

Yaqub Mahmudov AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru vəzifəsinə təyin edildikdən sonra da Azərbaycan təhsilinin inkişafı üçün





fəaliyyətini dayandırmamış, əksinə, elmi kadrların pedaqoji fəaliyyətə geniş cəlb edilməsi sayəsində bu fəaliyyət daha səmərəli nəticələr vermişdir. Akademikin özünün də dediyi kimi, "Bu işdə orta məktəb müəllimlərinin iştirakı ilə yanaşı, alimlərin də iştirakı vacibdir. Çünki müntəzəm olaraq yeni elmi faktlar aşkar olunur. Bu elmi yeniliklərin müəyyən qisminin tədrisə gətirilməsi sürətlə inkişaf edən təhsil sisteminə yalnız fayda verə bilər. Ölkə başçısının 2012-ci ildəki sərəncamında təsbit olunduğu kimi Tarix İnstitutu ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzidir. Bu mərkəz tarix dərsliklərinin hazırlanması işində başlıca rol oynamalıdır. Hamıya yaxşı məlumdur ki, Tarix İnstitutunda aparılan tədqiqat işləri bilavasitə ölkə başçısının təşəbbüsü ilə həyata keçirilir. Bu baxımdan da Tarix İnstitutunun yeni tədqiqatları dərsliklərdə öz əksini tapmalıdır" [9].

Məhz bu siyasətin ardıcıl həyata keçirilməsi nəticəsində, Tarix İnstitutunun alimlərinin və orta məktəb müəllimlərinin iştirakı ilə dərsliklər hazırlanmış, bu dərsliklərdə kurikulum standartlarının tətbiqi ilə yanaşı, azərbaycançılıq ideologiyasının təbliği əsas götürülmüşdür. Akademik Yaqub Mahmudovun özünün də dediyi kimi, "İşğal olunmuş ərazilərimizin, xüsusilə Qarabağın tarixi, onun tarixi, maddi-mədəniyyət abidələri, görkəmli şəxsiyyətləri dərsliklərdə geniş şəkildə verilərək gənclərimizin vətənpərvərlik tərbiyəsi Azərbaycan tarixi dərslərinin əsas meyarına çevrilmişdir ... Şimallı cənublu bütöv Azərbaycanın, işğal olunmuş ərazilərimizin tarixini, xüsusilə Qarabağın tarixi, onun maddi-mədəniyyət abidələri, tarixi abidələri, görkəmli tarixi şəxsiyyətləri dərsliklərdə geniş şəkildə verilərək gənclərimizin vətənpərvərlik tərbiyəsi Azərbaycan tarixi dərslərinin əsas meyarına çevrilmişdir" [8; 9]. Qeyd edək ki, adı çəkilən dərsliklər Təhsil Nazirliyinin, Dövlət İmtahan Mərkəzinin (DİM) ekspertləri və müxtəlif universitetlərin müəllimləri tərəfindən müsbət rəylər aldıqdan sonra çap edilir və bu "işin təşkilində Təhsil Nazirliyinin obyektiv mövqeyi təqdirəlayiqdir. Eyni zamanda, DİM-in keçirdiyi monitorinqlərdə müntəzəm olaraq həmmüəlliflər iştirak edirlər" [8].

Akademik Yaqub Mahmudov doğru olaraq göstərir ki, rəhbərlik etdiyi "Tarix İnstitutunun yeni tədqiqatları dərsliklərdə öz əksini tapmalıdır" [9]. Məlumdur ki, 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir. "Orta ümumtəhsil məktəblərində kurikuluma əsaslanan dərsliklərin hazırlanması prosesi 2012-ci ildən "Azərbaycan tarixi" və "Ümumi tarix" dərsliklərinin yazılması və təhsil dövriyyəsinə buraxılması ilə davam etmişdir. Artıq 2016-cı ildən 9-cu siniflər üçün "Azərbaycan tarixi" dərsliyi şagirdlərin istifadəsinə verilmişdir. Dərslikdə XIX əsrin I yarısından müasir dövrə qədər Azərbaycan tarixi əlavə məlumatlarla, mənbələrlə, illüstrasiya və şəkillərlə nəfis tərtibatda verilmiş, metodik göstəricilər tətbiq edilmişdir.

Təhsil və elm sahəsində həyata keçirdiyi bütün bu fəaliyyətlərlə yanaşı, akademik Yaqub Mahmudov həm də pedaqoq olaraq da fəaliyyətini davam etdirməkdədir. Belə ki, bu gün Yaqub Mahmudovun magistr ixtisaslarında oxuduğu mühazirələr ali məktəb tələbələri üçün əvəzedilməz dərs vəsaitidir; onun rəhbərlik etdiyi "Qədim dünya və orta əsrlər tarixi" kafedrası isə "Azərbaycanda mediyevistikanın yeganə, Qafqazda başlıca mərkəzidir" [2, s.125].

Akademik Yaqub Mahmudovun Azərbaycan təhsilinin inkişaf etdirilməsində, Ulu Öndər Heydər Əliyevin təhsil strategiyasının həyata keçirilməsində fəaliyyəti də elmi və ictimai fəaliyyəti kimi, müasir Azərbaycan tarixinin bütövləşməsinə, Azərbaycançılığın təbliğinə xidmət edir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Hüseynova Leyla. Akademik Yaqub Mahmudov və Azərbaycan tarixinin tədrisi // http://olaylar.az/news/sosial/318548
2. Gözəlova Y.H. Tarix elmində Yaqub Mahmudov məktəbi. Bakı, "Təhsil", 2013
3. Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Ağqoyunlu dövrü. Bakı, 1986
4. Mahmudov Y.M. Biblioqrafik göstərici. Bakı, 2012
5. Mahmudov Y.M. Orta əsrlər tarixi. Erkən feodalizm dövrü. Bakı, 1990
6. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, "Gənclik", 1985; Yeni və tamamlanmış nəşri: Mahmudlu Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, Təhsil, 2012
7. Orta əsrlər tarixi. I cild. S.D.Skazkinin redaktəsi ilə. Y.M.Mahmudovun tərcüməsi. Bakı, 1988
8. Yaqub Mahmudov: Azərbaycan tarixi dərslikləri azərbaycançılıq konsepsiyası əsasında hazırlanır //https://azertag.az/xeber/Yaqub_Mahmudov_Azerbaycan_tarixi_dersliklleri_azerbaycanchiliq_konsepsiyasi_esasinda_hazirlanir-1033783
9. Yaqub Mahmudov: Tarix İnstitutunun yeni tədqiqatları dərsliklərdə öz əksini tapmalıdır // http://www.1news.az/az/mobile/az/news/yaqub-mahmudov-tarix-nstitutunun-yeni-t-dqiqatlar-d-rslikl-rd-z-ksini-tapmal-d-r
10. Мусаева Т., Мамедов А. Флагман исторической науки Азербайджана // AMEA Tarix İnstitutunun Elmi Əsərləri, 2009, 30-cu buraxılış